# SOSİAL-İQTİSADİ İNKİŞAF YOLLARINDA İNAMLI ADDIMLAR

**Müstəqil respublikamızın sosial-iqtisadi tərəqqi sahəsində əldə etdiyi nailiyyətlərdə Ağcabədi rayonu sakinlərinin də mühüm yeri vardır. Onlar bu gün qurub-yaratmaq amalı ilə yaşayıb işləyirlər. İnsanların rifahının yaxşılaşdırılmasından ötrü dövlət səviyyəsində göstərilən dəstək, respublika Prezidenti cənab İlham Əliyevin Ağcabədi sakinlərinə xüsusi qayğısı onların quruculuq əhval-ruhiyyəsini xeyli yüksəltmişdir.**

İndi rayonda insanlar yay qayğıları ilə yaşayırlar, məhsul yığımının qızğın çağıdır, fermerlər elliklə taxıl zəmilərində, bağlarda, tarlalarda çalışırlar. Sahələrdə becərmə və suvarma tədbirlərinin həyata keçirilməsinə, yaşayış məntəqələrində tikinti-abadlıq işlərinin davam etdirilməsinə böyük diqqət yetirilir. **Rayon Statistika İdarəsinin rəisi Elsevər İsmayılov** rayonda sosial-iqtisadi inkişaf haqqında ətraflı məlumat verdi. O söylədi ki, Ağcabədi rayonu 1930-cu ildə yaradılmışdır, ərazisi 1,76 min kvadratkilometr, əhalisinin sayı 131 min nəfərə yaxındır. Rayonda 31081 təsərrüfatda birləşən şəhər və qəsəbə ilə yanaşı, 44 kənd yaşayış məntəqəsi vardır.

Ağcabədi rayonu hər sahədə yüksək potensiala malikdir. Bu da sosial-iqtisadi inkişafa stimul yaradır. Belə ki, ilin birinci rübündə məhsul buraxılışının ümumi həcmi 2014-cü ildəkinə nisbətən 12,5 faiz artaraq 49 milyon manatı ötüb keçmişdir. Ümumi məhsulun 4491 min manatı sənayenin, 16678 min manatı kənd təsərrüfatının, 8615 min manatı tikintinin, qalan hissəsi ticarət və iaşənin, rabitə, nəqliyyat və digər xidmət sahələrinin payına düşür. Əsas kapitala yönəldilən investisiyanın həcmi 9847 min manat olmuşdur ki, bu, ötən ildəkinə nisbətən 8 faiz çoxdur.

Son vaxtlar daimi dövlət qayğısı sayəsində tikinti-abadlıq işləri genişlənməkdədir. Tikinti təşkilatlarının yerinə yetirdikləri işlərin ümumi həcmi 2014-cü illdəkinə nisbətən 10,1 dəfə artmışdır. Son aylar ərzində Heydər Əliyevin adını daşıyan meydanda, bəzi küçələrdə, Şəhidlər xiyabanında abadlıq işləri həyata keçirilmiş, xeyli asfalt döşənmiş, müasir işıqlandırma və görüntü-monitor sistemləri quraşdırılmışdır. Şəhərdə və yaşayış məntəqələrində minlərlə dekorativ ağac əkilmiş, 1,2 hektar ərazidə ağac şitilliyi salınmışdır. Kommunal evlərin su təchizatına xüsusi diqqət yetirilmiş, su anbarları və kanalizasiya xətləri, avadanlıqlar təmir edilmişdir. Ağdam rayonu ərazisindən başlanan istiqamətdə Sarıcalı kəndi ərazisində giriş alaqapısı inşa olunmuş, 1400 metr hasar hörülmüşdür. Hazırda 4 saylı uşaq bağçasının yeni binasında son tamamlama işləri aparılır.

Yol tikintisinə xüsusi önəm verilir. 100 kilometrdən çox respublika əhəmiyyətli yollarda təmir işləri aparılmışdır. Nəinki magistral yollar, eyni zamanda 74 kilometr yerli əhəmiyyətli avtomobil yolları da sahmana salınmışdır. Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili avtomobil yolu istismara verilmişdir. Ərazilərdə mövcud avtomobil yollarının genişləndirilməsi, yol kənarlarında səkilərin inşa edilməsi, müasir işıqlandırma sisteminin quraşdırılması, yaşıllıq zolaqlarının salınması sakinlərin ürəyindən olmuşdur.

Rayonda 126 min hektardan artıq kənd təsərrüfatına yararlı torpaqlar vardır ki, bunun da 65700 hektarı əkin, 59974 hektarı otlaq yerləridir. Taxılçılıq, pambıqçılıq və heyvandarlıq aparıcı sahələr hesab edilir. Son vaxtlar fermer təsərrüfatlarına ayrılan maliyyə yardımları ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. 2014-cü ildə 80 min tona yaxın arpa və buğda istehsal olunmuş, taxılın məhsuldarlığı 32,5 sentnerə çatdırılmışdır. Ötən payızda əkinlərin sahəsi xeyli artırılmışdır. Respublika Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamına əsasən əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və mühərrik yağlarını əldə etməkdən ötrü mülkiyyətçilərə 1 milyon 673 min manat yardım verilmiş, 3674 nəfər buğda istehsalçısına 18359 hektar əkinin becərilməsindən ötrü 734360 manat subsidiya ödənilmişdir.

Təsərrüfatlarda bəslənilən iri və xırdabuynuzlu heyvanların sayı 7,2 faiz artmış, cari ilin birinci rübündə 2627 ton ət, 25549 ton süd, 2 milyon 932 min ədəd yumurta istehsal olunmuşdur. Bundan əlavə, sahibkar müəssisələri tərəfindən xeyli pendir və kəsmik, qatıq, xama, ayran və kərə yağı istehsal edilmişdir. Bundan başqa, fermalarda İslandiyadan alınmış 890 baş cins qoyun saxlanılır. Bunun nəticəsində bazarlara çıxarılan kənd təsərrüfatı məhsullarının miqdarı çoxalmış, nəticədə fermerlərin və fiziki şəxslərin gəlirləri artmışdır. Bakı şəhərində və rayon mərkəzində təşkil olunmuş yarmarkalarda aşağı qiymətlərlə 130 tondan çox müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları satılmışdır.

Regionların sosial-iqtisadi inkişafı tədbirləri ilə əlaqədar son vaxtlar rayonda "Aqrolizinq" ASC-nin aqroservis xidməti normal fəaliyyət göstərir, xeyli yeni texnika gətirilərək qüvvətli baza yaradılmışdır, fermerlər və fiziki şəxslər bu xidmətdən yetərincə istifadə edə bilirlər. 181 kilometrlik suvarma kanallarında lildəntəmizləmə işləri aparılmış, 83 hidrotexniki qurğu, 3 nasos stansiyası, 165 subartezian quyusu təmirdən çıxmışdır. Bütün işlərin görülməsində özəl strukturlar əsas ağırlığı öz çiyinlərinə götürmüşlər. Rayon iqtisadiyyatında məşğul olanların sayı xeyli çoxalmışdır. Bu fakt sahibkarlığın inkişaf etdirilməsinin yüksək templərini və bu inkişafdan ötrü münbit şəraitin mövcudluğunu sübut edir. Ümumiyyətlə, bu ilin birinci rübündə 60 sahibkarlıq subyektinə 6 milyon 743 min manat güzəştli kredit verilmişdir. Bütün bunlar 730 yeni iş yerinin açılmasına səbəb olmuşdur ki, bunun da 432-si daimidir.

Rayonda məşğulluğun təmin olunması, sosial müdafiənin gücləndirilməsi, pensiya və müavinətlərin vaxtında ödənilməsi, aztəminatlı ailələrə sosial yardımların verilməsi əvvəlki vaxtlara nisbətən daha yaxşı təşkil edilmişdir. Birinci rübdə 17615 pensiyaçıya xidmət göstərilmiş, 7823 ailənin maddi vəziyyətini yaxşılaşdırmaq üçün sosial yardımlar edilmiş, 1942 ailəyə hər ailə üzvünə 147 manat olmaqla ünvanlı sosial yardım ödənilmişdir. Əhalinin orta aylıq əmək haqqı 4,4 faiz artaraq 257 manata çatmışdır.

Nəqliyyatda yük və sərnişin daşınması müvafiq olaraq 1,8 və 1,5 dəfə artmışdır. Mərkəzi ATS-də xeyli yeni elektron avadanlıq quraşdırılmış, eyni zamanda kənd ATS-ləri müasir iş rejiminə uyğunlaşdırılmışdır. Hər 100 ailəyə düşən telefon aparatlarının sayı ötən ildəki ilə müqayisədə 2,4 dəfə çoxalmışdır. Əhalinin təbii qazla təmin olunması sahəsində xeyli tədbir görülmüş, hazırda 27229 abonent mavi yanacaqdan istifadə edir, kəndlərə yeni qaz xətləri çəkilir. Rayonda elektrik təsərrüfatının inkişaf etdirilməsi sahələrində mühüm irəliləyiş olmuş, rüb ərzində istehlakçılara 77436 min kilovat/saat enerji verilmişdir.

Hazırda Ağcabədidə 62 ümumtəhsil ocaqlarında 2696 pedaqoji işçi çalışır. Məktəblərin maddi-texniki bazası əvvəlki illərə nisbətən xeyli möhkəmləndirilmiş, geniş miqyasda təmir işləri aparılmışdır. Bir sıra təhsil ocaqlarında istilik sistemləri yenidən qurulmuş, şagirdlərin istifadəsinə yüzlərlə kompüter dəsti, kifayət qədər tədris avadanlığı və inventar verilmişdir. Hazırda hər 13 şagirdə bir ədəd kompüter dəsti düşür, 40 ümumtəhsil məktəbi internetə qoşulmuşdur.

Mərkəzi xəstəxana nəzdində 9 şəhər, qəsəbə və kənd sahə xəstəxanaları, 19 həkim məntəqəsi, 24 kənd tibb məntəqəsi fəaliyyət göstərir, uşaq xəstəxanası, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri əhaliyə yüksək səhiyyə xidməti göstərir. Prezident İlham Əliyevin tapşırığına əsasən birinci rübdə 63502 sakin pulsuz tibbi müayinədən keçmiş, 996 nəfər ambulator, 63 nəfər stasionar müalicəyə cəlb olunmuşdur. Tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, maddi-mənəvi irsin mühafizə olunması üçün bütün imkanlar səfərbər edilmişdir. Son vaxtlar rayon gənclərinin bədən tərbiyəsi və idmanla əhatə olunmasında, onların vətənpərvərlik ruhunda tərbiyəsində yaxşı göstəricilər əldə olunmuş, müxtəlif yarışlarda 38 medal və diplom qazanılmışdır.

Ağcabədililər yaxşı başa düşürlər ki, rayonun sosial-iqtisadi inkişafını təmin etmək, əhalinin güzəranını yaxşılaşdırmaq üçün daha gərgin işləmək gərəkdir və üzümüzə gələn illərdə rayon sakinlərini daha çətin, lakin şərəfli işlər gözləyir. Tam əminliklə söyləmək olar ki, daimi dövlət qayğısı sayəsində Ağcabədidə mühüm layihələr, insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər yüksələn xətlə həyata keçiriləcəkdir.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**